No: 04 2026
https://doi.org/10.64400/ea26-04-02
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# DİL VƏ GENDER TƏDQİQATLARINDA PRAQMATİK YANAŞMALARIN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Nərgiz MƏMMƏDLİ**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* nargis1mammadli@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 22.10.2026*
*Nəşr edilmə tarixi: 30.11.2026*

**AÇAR SÖZLƏR:**
gender, praqmatika, diskurs, gender identikliyi, dil və gender

**XÜLASƏ**
Gender və praqmatika arasındakı qarşılıqlı əlaqə müasir dilçiliyin aktual tədqiqat istiqamətlərindən biri hesab olunur. Məqalədə dil və gender tədqiqatlarının inkişaf mərhələləri, eləcə də praqmatik yanaşmaların bu sahənin nəzəri əsaslarının təşəkkülündə oynadığı rol araşdırılır. Tədqiqat çərçivəsində gender və dil sahəsinə aid elmi mənbələr nəzərdən keçirilmiş, mövcud nəzəri yanaşmalar sistemləşdirilmiş və müqayisəli şəkildə təhlil edilmişdir. Defisit, dominantlıq, fərqlilik və dinamik yanaşmaların əsas prinsipləri təhlil edilərək onların gender anlayışının şərhinə təsiri müəyyənləşdirilmişdir. Tədqiqatın nəticələri göstərir ki, gender və praqmatika arasında sıx qarşılıqlı əlaqə mövcuddur və gender identikliklərinin formalaşması dilin yalnız struktur xüsusiyyətləri ilə deyil, həm də onun konkret kommunikativ və sosial kontekstlərdə istifadəsi ilə şərtlənir. Müəyyən edilmişdir ki, genderə dair nəzəri baxışlar zaman keçdikcə dəyişərək onu sabit və bioloji xüsusiyyət kimi izah edən yanaşmalardan sosial və diskursiv müstəvidə formalaşan dinamik konstruksiya kimi dəyərləndirən yanaşmalara doğru inkişaf etmişdir. Nəticə etibarilə, praqmatik yanaşmalar genderin dil vasitəsilə qurulması və təqdim olunması mexanizmlərinin daha dərindən izah edilməsinə imkan yaradır və bu sahədə aparılan tədqiqatların nəzəri bazasının genişlənməsinə mühüm töhfə verir.

## GİRİŞ

Müasir dilçilikdə gender və dil münasibətlərinin öyrənilməsi ən dinamik inkişaf edən tədqiqat istiqamətlərindən biri hesab olunur. Dilin yalnız kommunikasiya vasitəsi deyil, həm də sosial münasibətlərin, identikliklərin və mədəni dəyərlərin formalaşdırılmasında iştirak edən mühüm mexanizm kimi dəyərləndirilməsi gender problemlərinə marağın artmasına səbəb olmuşdur. Xüsusilə XX əsrin ikinci yarısından etibarən genderin dil vasitəsilə necə ifadə olunması, dil vahidlərinin gender identikliklərinin qurulmasında hansı funksiyaları yerinə yetirməsi və kommunikativ davranışın gender amili ilə necə əlaqələndiyi məsələləri dilçilərin diqqət mərkəzinə çevrilmişdir. Bu kontekstdə praqmatika gender tədqiqatlarının nəzəri və metodoloji bazasının genişlənməsində mühüm rol oynamışdır. Praqmatik yanaşmalar dil vahidlərini yalnız formal xüsusiyyətləri baxımından deyil, onların konkret kommunikativ situasiyada daşıdığı funksiyalar və yaratdığı mənalar çərçivəsində təhlil etməyə imkan verir. Məhz buna görə də gender və praqmatika arasındakı qarşılıqlı əlaqənin araşdırılması gender identikliklərinin diskurs daxilində necə formalaşdığını və sosial kontekstin bu prosesə hansı şəkildə təsir göstərdiyini daha dərindən anlamağa şərait yaradır. Bu baxımdan məqalədə gender tədqiqatlarında praqmatik yanaşmaların inkişaf mərhələləri və onların gender anlayışının nəzəri interpretasiyasına təsiri təhlil edilir.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın materialını gender, praqmatika və gender-dil münasibətlərinə həsr olunmuş elmi ədəbiyyat təşkil edir. Araşdırma zamanı gender tədqiqatlarının inkişaf mərhələlərini əks etdirən nəzəri mənbələr seçilmiş, həmin mənbələrdə irəli sürülmüş elmi yanaşmalar sistemli şəkildə öyrənilmişdir. Materialların seçilməsi onların tədqiqatın məqsəd və vəzifələrinə uyğunluğu, mövzunun nəzəri əsaslarını əhatə etməsi və genderin praqmatik aspektlərinin izahına töhfə verməsi meyarlarına əsaslanmışdır.

Tədqiqatın metodoloji əsasını nəzəri təhlil, müqayisəli təhlil və məzmun təhlili metodları təşkil edir. Nəzəri təhlil vasitəsilə gender dilçiliyində formalaşmış əsas elmi yanaşmalar araşdırılmış,

müqayisəli təhlil əsasında onların ümumi və fərqli xüsusiyyətləri müəyyənləşdirilmişdir. Məzmun təhlili metodu isə müxtəlif müəlliflərin gender və praqmatika ilə bağlı elmi baxışlarının sistemləşdirilməsi, onların qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi və əldə edilmiş nəticələrin ümumiləşdirilməsi məqsədilə tətbiq olunmuşdur.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Gender tədqiqatlarının inkişafı müxtəlif nəzəri yanaşmaların formalaşması ilə müşayiət olunmuşdur. Bu yanaşmalar gender və dil münasibətlərinin fərqli aspektlərini izah etməyə çalışaraq sahənin metodoloji bazasının zənginləşməsinə töhfə vermişdir. Genderin praqmatik baxımdan öyrənilməsi isə dil vahidlərinin konkret kommunikativ və sosial kontekstdə necə reallaşdığını daha dolğun şəkildə izah etməyə imkan verir. Bu baxımdan gender tədqiqatları çərçivəsində formalaşmış əsas nəzəri istiqamətlərin inkişaf mərhələlərinin nəzərdən keçirilməsi məqsədəuyğun hesab edilir.

1970-ci illərin əvvəllərindən etibarən feminist ideyaların geniş yayılması gender məsələlərinə marağın əhəmiyyətli dərəcədə artmasına səbəb olmuş, bunun nəticəsində dil, mədəniyyət və təfəkkür arasındakı qarşılıqlı münasibətlər yenidən elmi müzakirələrin mərkəzinə çevrilmişdir. Sonrakı onilliklərdə, xüsusilə 1980–1990-cı illərdə ABŞ və Avropada aparılan feminist tədqiqatlar getdikcə daha çox dil yönümlü xarakter almışdır. Bu tendensiya yalnız dilçilik və fəlsəfə ilə məhdudlaşmamış, tarix, ədəbiyyat nəzəriyyəsi, psixologiya, siyasətşünaslıq və sosiologiya kimi müxtəlif elmi sahələrdə də öz əksini tapmışdır. Həmin dövrdə aparılan araşdırmaların ümumi nəticəsi göstərirdi ki, dil sadəcə kommunikasiya vasitəsi deyil, eyni zamanda gender identikliklərinin formalaşmasında və gender münasibətlərinin qurulmasında fəal iştirak edən sosial mexanizmdir. Bu səbəbdən gender və dil problemləri yalnız akademik müstəvidə deyil, ictimai diskursda da geniş şəkildə müzakirə olunmağa başlamışdır. Kütləvi informasiya vasitələrində qadın və kişi nitqinin fərqliliyinə dair müxtəlif mülahizələr irəli sürülmüş, bəzi müəlliflər isə feministlərin dil siyasətinə müdaxiləsini tənqid etmişlər.

Gender və dil araşdırmaları uzun müddət praqmatik problemlərlə əlaqələndirilsə də, gender tədqiqatlarında "praqmatika" anlayışına birbaşa müraciət əsasən 1990-cı illərin sonlarından etibarən müşahidə edilməyə başlamışdır (Cameron, 1998). Bu istiqamətdə aparılan tədqiqatlar genderin kontekstlə qarşılıqlı əlaqədə öyrənilməsinə artan marağı əks etdirir. Tədqiqatçılar qeyd edirlər ki, gender identikliyinin daha dolğun izahı yalnız dil vahidlərinin struktur xüsusiyyətlərinin deyil, onların konkret kommunikativ şəraitdə yerinə yetirdiyi funksiyaların da nəzərə alınmasını tələb edir (Mills, 2002, 2003; Cameron, 2005).

1980-ci illərdən başlayaraq gender və dil tədqiqatlarında istifadə olunan nəzəri yanaşmalar daha mürəkkəb və çoxşaxəli xarakter almışdır (Coates, 2003; Mullany, 2010). Bu inkişaf prosesində praqmatika mühüm metodoloji baza kimi çıxış etmiş, genderlə bağlı məsələlərin izahına yeni nəzəri çalarlar qazandırmışdır. C. Christie (2010) praqmatika ilə gender araşdırmalarının iki əsas istiqamətdə kəsişdiyini göstərir. Birinci istiqamət kişi və qadınların dil resurslarından istifadə üsullarının və onların interpretasiya mexanizmlərinin araşdırılmasını əhatə edir. İkinci istiqamət isə genderin dil vasitəsilə necə təqdim olunması və təmsil edilməsi məsələlərinə yönəlir. Bununla yanaşı, müəllif vurğulayır ki, əgər praqmatikanın əsas məqsədi "nitq aktının hansı səbəbdən meydana gəldiyini" müəyyənləşdirməkdirsə, onda gender tədqiqatları da praqmatikanın inkişafına mühüm töhfə vermişdir (Haberland və Mey, 2002). Çünki bu araşdırmalar dil vahidlərinin mənasının yalnız linqvistik amillərlə deyil, həm də sosial və mədəni kontekstlə sıx bağlı olduğunu nümayiş etdirmişdir.

Gender və praqmatika arasındakı əlaqələrin sistemli şəkildə öyrənilməsi Robin Lakoffun araşdırmaları ilə daha aydın şəkildə formalaşmağa başlamışdır (Lakoff, 1975). R. Lakoffun öz araşdırmalarında H. P. Gricein əməkdaşlıq prinsiplərinə və özünün nəzakət nəzəriyyəsinə istinad edərək qadın və kişi nitqi arasında mövcud fərqləri izah etməyə çalışmışdır (Lakoff, 1973). Onun fikrincə, cəmiyyət tərəfindən qəbul edilən nəzakət normalarına uyğunlaşmaq və "xanım kimi danışmaq" qadınları daha ehtiyatlı, dolayı və yumşaq nitq strategiyalarından istifadə etməyə sövq edir. Nəticədə belə nitq formaları həm başqaları, həm də qadınların özləri tərəfindən gücsüzlük göstəricisi kimi qəbul edilə bilir.

Lakoffun yanaşmasında qadın dili müəyyən mənada "çatışmayan" və ya "gücsüz" dil modeli kimi təqdim olunmuşdur. Sonralar bu baxış gender və dil tədqiqatlarında *defisit yanaşması* adı ilə tanınmışdır. Həmin yanaşma müasir gender tədqiqatlarının ilkin mərhələsini təşkil edir və genderlə dil arasındakı münasibətləri sistemli şəkildə izah etməyə çalışan ilk nəzəri istiqamətlərdən biri hesab olunur. B. Dubois və I. Crouch, P. Fishman və digər tədqiqatçıların araşdırmaları da göstərmişdir ki, etiket sualları, cavab reaksiyaları və digər nitq vasitələrinin gender baxımından istifadəsini anlamaq üçün praqmatik təhlil mühüm əhəmiyyət kəsb edir (Dubois və Crouch, 1975; Fishman, 1983).

1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində gender araşdırmalarında *dominantlıq yanaşması* ön plana çıxmağa başlamışdır. Bu istiqamət qadın və kişi nitqindəki fərqləri əsasən hakimiyyət münasibətləri çərçivəsində şərh edir və kişilərin sosial üstünlüyünü dil vasitəsilə izah etməyə çalışır (Zimmerman və West, 1975). Dominantlıq yanaşmasının əsas tezisinə görə, dil cəmiyyətdə mövcud olan güc bərabərsizliyinin əksidir və kişilər ünsiyyət prosesində daha üstün mövqeyə malikdirlər. Bu fikir D.Spenderin "Man Made Language" əsərində daha qabarıq şəkildə ifadə olunmuşdur (Spender, 1980).

D. Zimmerman və C. West danışıq təhlili metodundan istifadə edərək kişi və qadınların ünsiyyət zamanı bir-birinin nitqinə müdaxilə hallarını araşdırmış və kişilərin daha çox müdaxilə etdiyini müəyyən etmişlər. Bununla belə, sonrakı tədqiqatlar göstərmişdir ki, yalnız statistik göstəricilərə əsaslanmaq kifayət etmir. G. Beattie və digər alimlər müdaxilələrin müxtəlif kommunikativ funksiyalar daşıya biləcəyini vurğulayaraq onların kontekst daxilində öyrənilməsinin vacibliyini qeyd etmişlər. Bu isə praqmatik təhlilin gender araşdırmalarındakı rolunu daha da gücləndirmişdir.

Dominantlıq yanaşması ilə eyni dövrdə formalaşmağa başlayan *fərqlilik yanaşması* gender fərqlərini yalnız hakimiyyət münasibətləri ilə əlaqələndirməyi yetərli hesab etmirdi. Bu yanaşma qadın və kişi nitqini fərqli sosiallaşma proseslərinin nəticəsi kimi qiymətləndirirdi. J. Coates qeyd etdiyi kimi, dil sosial praktika olduğundan gender fərqləri də sosial təcrübələrin və mədəni dəyərlərin təsiri altında formalaşır (Coates, J, 1986). Bu mərhələdə praqmatika ilə gender araşdırmaları arasında əlaqələr daha da dərinləşmişdir. D. Tannen (1990) qadın və kişi ünsiyyətini müqayisə edərək göstərirdi ki, qadınlar söhbət zamanı daha çox yaxınlıq, həmrəylik və qarşılıqlı dəstək yaratmağa çalışırlar. Kişilər isə ünsiyyətdə mövqelərini qorumağa və üstünlüklərini nümayiş etdirməyə meyilli olurlar. Bu fərqlər D. N. Maltz və R. A. Borkerin irəli sürdüyü fərqli sosiallaşma nəzəriyyəsi ilə izah olunurdu (Maltz, Daniel və Ruth Borker. 1982). Həmin nəzəriyyəyə görə, oğlan və qız uşaqları müxtəlif sosial qruplarda formalaşdıqları üçün fərqli kommunikativ davranış modelləri mənimsəyirlər.

Fərqlilik yanaşmasının əsas xüsusiyyəti genderi sabit identiklik elementi kimi qəbul etməsində özünü göstərir. Bu yanaşmaya əsasən, gender xüsusiyyətləri fərdlərin erkən sosiallaşma prosesində formalaşır və sonrakı kommunikativ davranışlara təsir göstərir (Cameron, 2005). Bununla belə, sonrakı araşdırmalar göstərmişdir ki, genderi yalnız sabit xüsusiyyətlər toplusu kimi qiymətləndirmək onun mürəkkəb sosial təbiətini tam əks etdirmir. Məhz bu səbəbdən gender və dil araşdırmalarında sonrakı mərhələdə *dinamik yanaşma* formalaşmışdır. Sosial konstruktivist nəzəriyyələrə əsaslanan bu yanaşma genderi dəyişməz xüsusiyyət deyil, sosial qarşılıqlı təsir prosesində davamlı şəkildə qurulan və yenidən formalaşdırılan bir fenomen kimi izah edir (Mullany, 2010). Bu istiqamətdə xüsusilə J. Butlerin genderin performativ xarakteri haqqında irəli sürdüyü fikirlər böyük təsir göstərmişdir (Butler, Judith 2004). Gender artıq əvvəlcədən mövcud olan bir kateqoriya deyil, gündəlik ünsiyyət prosesində davamlı şəkildə icra olunan sosial praktikalar toplusu kimi qiymətləndirilir.

Sosial konstruktivist yanaşmanın inkişafı gender identikliklərinin formalaşmasında praqmatik amillərin rolunun daha dərindən öyrənilməsinə imkan yaratmışdır. Gender identikliyi qarşılıqlı ünsiyyət prosesində daim müzakirə olunur, yenidən qurulur və müxtəlif sosial şəraitlərdə fərqli formalarda təzahür edir. Bu baxımdan gender yalnız cins kateqoriyası ilə məhdudlaşmır, həm də yaş, etnik mənsubiyyət, sosial təbəqə və digər sosial amillərlə qarşılıqlı əlaqədə formalaşan çoxqatlı identiklik sistemi kimi çıxış edir. Beləliklə, gender və praqmatika sahəsində aparılmış tədqiqatların inkişaf xətti göstərir ki, bu istiqamətdə nəzəri baxışlar zaman keçdikcə sadə fərq və bərabərsizlik modellərindən daha mürəkkəb sosial-konstruktivist izahlara doğru inkişaf etmişdir. Müasir

yanaşmalar genderi sabit xüsusiyyət deyil, konkret kommunikativ kontekstlərdə formalaşan və dəyişən sosial konstruksiya kimi dəyərləndirir. Bu isə praqmatikanın gender identikliklərinin dil vasitəsilə necə qurulduğunu izah edən əsas nəzəri istiqamətlərdən biri olduğunu bir daha təsdiqləyir.

Aparılmış nəzəri təhlilin nəticələri göstərir ki, gender və praqmatika arasında qarşılıqlı əlaqə müasir dilçiliyin aktual elmi istiqamətlərindən birini təşkil edir. Gender tədqiqatlarının inkişaf mərhələlərinin müqayisəli şəkildə təhlili göstərir ki, bu sahədə formalaşmış nəzəri yanaşmalar zaman keçdikcə əhəmiyyətli təkamül yolu keçmişdir. Əgər ilkin mərhələlərdə gender əsasən bioloji xüsusiyyətlərlə əlaqələndirilirdisə, sonrakı araşdırmalarda onun sosial, mədəni və diskursiv amillərin təsiri altında formalaşan dinamik konstruksiya olduğu əsaslandırılmışdır. Bu dəyişiklik gender fenomeninin yalnız dil sisteminin elementi kimi deyil, həm də kommunikativ fəaliyyət prosesində yaranan sosial hadisə kimi dəyərləndirilməsinə şərait yaratmışdır. Defisit, dominantlıq, fərqlilik və dinamik yanaşmaların müqayisəli təhlili göstərir ki, onların hər biri gender və dil münasibətlərinin müəyyən aspektlərini izah etsə də, birlikdə nəzərdən keçirildikdə gender identikliyinin çoxşaxəli təbiətinin daha dolğun şəkildə dərk edilməsinə imkan verir. Araşdırma həmçinin göstərir ki, praqmatik yanaşma gender identikliklərinin dil vasitəsilə necə qurulduğunu, təqdim edildiyini və şərh olunduğunu izah etmək baxımından mühüm metodoloji üstünlüklərə malikdir. Kommunikativ məqsəd, sosial kontekst və ünsiyyət iştirakçıları arasında qarşılıqlı münasibətlər genderin dil müstəvisində reallaşmasına təsir göstərən əsas amillər kimi çıxış edir. Bu baxımdan əldə edilmiş nəticələr gender və praqmatikanın qarşılıqlı şəkildə öyrənilməsinin dilin sosial funksiyalarının daha dərindən izah edilməsinə və gələcək tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm elmi töhfə verdiyini təsdiqləyir.

## NƏTİCƏ

Aparılmış tədqiqat nəticəsində gender və praqmatika arasında qarşılıqlı əlaqənin mövcud olduğu müəyyən edilmişdir. Araşdırma göstərmişdir ki, gender tədqiqatlarında nəzəri yanaşmaların inkişafı gender anlayışının izahına dair baxışların dəyişməsi ilə müşayiət olunmuşdur. Müəyyən edilmişdir ki, defisit, dominantlıq, fərqlilik və dinamik yanaşmalar gender və dil münasibətlərinin müxtəlif aspektlərini açıqlayaraq bu sahənin nəzəri bazasının formalaşmasına mühüm töhfə vermişdir. Eyni zamanda müəyyən olunmuşdur ki, praqmatik yanaşma gender identikliklərinin konkret kommunikativ və sosial kontekst daxilində formalaşmasının izahı üçün geniş metodoloji imkanlar yaradır.

## ƏDƏBİYYATLAR


Butler, Judith. (2004) Undoing Gender. London: Routledge.

Cameron, D. (1998). Gender, power and pragmatics. Discourse & Society, 9, 437–455.

Cameron, D. (2005). Relativity and its discontents: Language, gender and pragmatics. Intercultural Pragmatics, 2–3, 321–334.

Christie, C. (2010). Gender and pragmatics. In L. Cummings (Ed.), The Pragmatics Encyclopedia (pp. 171–174). Routledge.

Coates, J. (1986). Women, Men and Language. London: Longman.

Dubois, B. L., & Crouch, I. (1975). The question of tag questions in women's speech: They don't really use more of them, do they? Language in Society, 4(3), 289–294.

Fishman, P. M. (1983). Interaction: The work women do. In B. Thorne, C. Kramarae, & N. Henley (Eds.), Language, Gender and Society (pp. 89–101). Newbury House.

Haberland, H., & Mey, J. L. (2002). Linguistics and pragmatics, 25 years after. Journal of Pragmatics, 34, 1671–1682.

Lakoff, R. (1973). The logic of politeness or minding your p’s and q’s. In Papers from the Ninth Regional Meeting of the Chicago Linguistic Society (pp. 292–305). Chicago Linguistic Society.

Lakoff, R. (1975). Language and woman’s place. Harper & Row.

Maltz, Daniel and Ruth Borker. (1982). A cultural approach to male-female misunderstandings. In: John J. Gumperz (ed.). Language and Social Identity. Cambridge: Cambridge University Press.
Mullany, L. (2010). Gender and interpersonal pragmatics. In M. Locher & S. L. Graham (Eds.), The Handbook of Interpersonal Pragmatics (pp. 225–250). Mouton de Gruyter.
Spender, Dale. (1980) Man Made Language. London: Routledge and Kegan Paul.
Tannen, D. (1990). You Just Don't Understand: Women and Men in Conversation. New York: Ballantine Books.

## ABSTRACT

## THE DEVELOPMENT OF PRAGMATIC APPROACHES IN LANGUAGE AND GENDER STUDIES

**Nargiz Mammadli**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

The interrelationship between gender and pragmatics is considered one of the most relevant areas of research in modern linguistics. This article examines the formation and development of gender linguistics as well as the role of pragmatic approaches in shaping the theoretical foundations of this field. Within the framework of the study, scholarly sources on gender and language were reviewed, and existing theoretical approaches were systematized and comparatively analyzed. The main principles of the deficit, dominance, difference, and dynamic approaches were examined, and their influence on the interpretation of the concept of gender was identified. The findings demonstrate that a close interrelationship exists between gender and pragmatics, and that the formation of gender identities is determined not only by the structural features of language but also by its use in specific communicative and social contexts. The study reveals that theoretical perspectives on gender have gradually evolved from approaches viewing gender as a stable biological characteristic to approaches conceptualizing it as a dynamic construct formed within social and discursive contexts. Consequently, pragmatic approaches provide a deeper understanding of the mechanisms through which gender is constructed and represented in language and make a significant contribution to the expansion of the theoretical framework of gender studies.

***Keywords:*** *gender, pragmatics, discourse, gender identity, language and gender*

## РЕЗЮМЕ

## ЭТАПЫ РАЗВИТИЯ ПРАГМАТИЧЕСКИХ ПОДХОДОВ В ИССЛЕДОВАНИЯХ ЯЗЫКА И ГЕНДЕРА

**Наргиз Мамедли**
*Азербайджанский университет языков, Баку, Азербайджан*

Взаимосвязь гендера и прагматики является одним из актуальных направлений современных лингвистических исследований. В статье рассматриваются этапы становления и развития гендерной лингвистики, а также роль прагматических подходов в формировании теоретических основ данной области. В рамках исследования были изучены научные источники, посвящённые проблемам гендера и языка, систематизированы существующие теоретические подходы и проведён их сравнительный анализ. Были исследованы основные положения дефицитного, доминантного, дифференциального и динамического подходов, а также определено их влияние на интерпретацию понятия гендера. Результаты исследования показывают, что между гендером и прагматикой существует тесная взаимосвязь, а формирование гендерной идентичности обусловлено не только структурными особенностями языка, но и его функционированием в конкретных коммуникативных и социальных контекстах. Установлено, что теоретические представления о гендере постепенно эволюционировали от понимания его как устойчивой биологической характеристики к трактовке гендера как динамической конструкции, формирующейся в социальном и дискурсивном пространстве. Таким образом, прагматические подходы позволяют глубже раскрыть механизмы языковой репрезентации и конструирования гендера, а также вносят существенный вклад в развитие теоретической базы гендерных исследований.

***Ключевые слова:*** *гендер, прагматика, дискурс, гендерная идентичность, язык и гендер*